INTERNATIONAL MONETARY FUND
COMMUNICATIONS DEPARTMENT

Mətbuat üçün Məlumat No.14/107
TƏXİRƏSALINMADAN DƏRC EDİLMƏLİDİR
18 mart, 2014-cü il

Beynəlxalq Valyuta Fondu
Vaşinqton, K.D. ABŞ 20431

**Azərbaycanda IV Maddə üzrə Məsləhətləşmələr missiyasının işinin yekunlarına dair Bəyanat**

2014-cü il üzrə IV Maddə Məsləhətləşmələri çərçivəsində müzakirələr aparmaq məqsədilə 2014-cü il 4-17 mart tarixində Beynəlxalq Valyuta Fondunun (BVF) missiyası cənab Raca Almarzoqinin rəhbərliyi altında Bakıya səfər etmişdir. BVF əməkdaşları maliyyə naziri, Azərbaycan Mərkəzi Bankının (AMB) sədri və digər yüksək səviyyəli rəsmilər, habelə özəl sektor, vətəndaş cəmiyyəti və diplomatic dairələrin nümayəndələri ilə görüşmüşdür.

Səfərin sonunda cənab Raca Almarzoqi aşağıdakı bəyanatı təqdim etmişdir:

“Regiondakı bazarın təlatümü fonunda Azərbaycan hökuməti tərəfindən avrobondun ilk dəfə uğurla emissiya edilməsi investorların ölkənin neft sərvətinin ehtiyatla idarə edildiyinə əmin olduqlarını nümayiş etdirir. Ölkənin qarşısında duran əsas çağırış onun neft gəlirlərindən asılılığının azaldılması, o cümlədən aparıcı qüvvəsi özəl sektor olan şaxələnmiş iqtisadi artıma təkan verməkdir.

2014-2015-ci illər üzrə yaxınmüddətli iqtisadi perspektivlər əlverişlidir – qeyri-neft sektoru üzrə ÜDM-nin 8% civarında artımı, inflyasiya dərəcəsinin isə tək rəqəmlə ölçülən aşağı səviyyədə olması gözlənilir. Global perspektivin və formalaşmaqda olan əsas bazarlardakı vəziyyətin mümkün pisləşməsi ilə əlaqədar olaraq neftin qiymətinin enməsi başlıca riskdir.

2014-cü ilin təsdiq edilmiş büdcəsində nəzərdə tutulan daha sərt büdcə-vergi siyasətini alqışlayırıq; bunun ardınca, orta müddətli dövr üçün qərarlı büdcə konsolidasiyası strategiyası həyata keçirilməlidir. Bu, özəl investisiyalar üçün maliyyə vəsaitinə yer açardı və nəticədə, iqtisadiyyatı neftdən asılılıq olmadan şaxələndirməyə kömək edə bilərdi.

Azərbaycan Mərkəzi Bankının (AMB) pul siyasətini neytral mövqedə saxlamaq niyyəti, eləcə də istehlak kreditlərinin artımını yavaşıtmaq istiqamətində təşəbbüsləri düzgündür. Ancaq bu tədbirlərin təsiri yaxından izlənilməlidir. Maliyyə nəzarəti qaydalarının

gücləndirilməsi istiqamətində AMB-in gördüyü son tədbirlər maliyyə sabitliyini təmin etməyə kömək edəcəkdir, lakin sistemin dözümlülüyünü artırmaq və faiz dərəcəsi marjaları ilə bağlı rəqabətin gücləndirilməsi üçün əlavə tədbirlərə ehtiyac vardır.

Qanunun aliliyinin (məhkəmə sisteminin müstəqilliyinin) gücləndirilməsi və korrupsiya ilə mübarizə tədbirlərinin genişləndirilməsi istiqamətində addımlar, eləcə də seçilmiş müəssisələrin rəsmi imtiyazlarına son qoyan yeni Rəqabət Məcəlləsi, özəl sektora söykənən rəqabətə davamlı qeyri-neft iqtisadiyyatını yaratmağa kömək edərdi.

Missiya açıq və məqsədyönlü müzakirələrə görə rəsmi orqanlara minnətdarlığını bildirir.”

## Azərbaycan: Seçilmiş İqtisadi və Maliyyə Göstəriciləri, 2010–15

| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|
| | | | Ilkin | Proq. | Proq. | Proq. |
| Milli gəlir | | | | | | |
| ÜDM sabit qiymətlərlə | 5.0 | 0.1 | 2.2 | 5.8 | 5.0 | 4.6 |
| *O cümlədən:*Neft sektoru 1/ | 5.0 | -9.8 | -5.3 | 0.5 | -0.1 | -0.1 |
| Qeyri-neft sektoru 2/ | 7.6 | 9.4 | 9.6 | 9.9 | 8.3 | 7.5 |
| İstehlak Qiyməti İndeksi (dövrün sonuna) | 7.9 | 5.6 | -0.3 | 3.6 | 3.4 | 4.5 |
| İstehlak Qiyməti İndeksi (dövr üzrə orta göstərici) | 5.7 | 7.9 | 1.0 | 2.4 | 3.5 | 4.0 |
| Pul və kredit | | | | | | |
| Xalis xarici aktivlər | 34.6 | 68.7 | 5.6 | 19.9 | 16.4 | 3.4 |
| Xalis daxili aktivlər | 13.5 | 2.8 | 40.3 | 8.7 | 13.8 | 38.2 |
| Daxili kredit | 8.4 | 7.9 | 39.6 | 4.3 | 10.8 | 15.4 |
| *O cümlədən*: Özəl sektora verilən kredit | 6.6 | 18.1 | 20.8 | 27.6 | 10.3 | 15.1 |
| Manatla pul bazası | 31.6 | 29.4 | 27.1 | 10.7 | 12.7 | 9.5 |
| Geniş mənada pul kütləsi (manatla) | 34.8 | 32.5 | 25.5 | 19.0 | 14.7 | 14.1 |
| Geniş mənada ümumi pul kütləsi | 21.9 | 32.1 | 20.6 | 15.4 | 13.9 | 20.0 |
| Xarici valyutada depozitlərin geniş mənada pul kütləsinə nisbəti | 21.2 | 20.9 | 17.7 | 15.1 | 14.5 | 13.2 |
| Geniş mənada ümumi pul kütləsi dövriyyə sürəti (M3) 3/ | 2.8 | 2.6 | 2.3 | 2.3 | 2.3 | 2.3 |
| Xarici sektor (ABŞ$ ilə) | | | | | | |
| İxrac f.o.b. | 25.5 | 30.3 | -5.4 | -1.0 | -1.9 | -5.8 |
| *O cümlədən:* Neft sektoru | 25.7 | 30.9 | -6.7 | -1.0 | -1.9 | -6.7 |
| İdxal f.o.b. | 3.6 | 50.7 | 3.1 | 0.2 | 7.2 | 8.8 |
| *O cümlədən:* Neft sektoru | 19.6 | 35.5 | -5.9 | 6.8 | 31.0 | 32.1 |
| İxracın həcmi | -1.4 | -3.3 | -6.0 | -0.1 | -1.9 | 0.0 |
| İdxalın həcmi | -4.0 | 38.2 | 6.1 | 0.9 | 9.2 | 9.9 |
| Ticarətin şərtləri | 27.1 | 30.7 | 3.6 | -0.2 | 1.8 | -4.9 |
| Real effektiv məzənnə | 1.1 | 2.6 | 0.8 | 3.0 | ... | ... |
| Məcmu investisiya | 18.5 | 21.2 | 22.7 | 23.7 | 23.2 | 22.6 |
| İcmal hökumət | 12.5 | 16.0 | 16.1 | 17.3 | 17.0 | 16.5 |
| Özəl sektor | 6.1 | 5.1 | 6.7 | 6.4 | 6.3 | 6.1 |
| *O cümlədən:* Neft sektoru | 1.9 | 2.1 | 3.1 | 3.0 | 2.9 | 2.8 |
| Məcmu daxili ehtiyatlar | 52.5 | 54.1 | 50.7 | 48.2 | 43.9 | 37.2 |
| Məcmu milli ehtiyatlar | 46.6 | 47.6 | 44.5 | 43.4 | 38.2 | 32.5 |
| İcmal hökumət | 27.1 | 29.7 | 20.9 | 18.3 | 17.3 | 13.3 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Özəl sektor 4/ | 19.5 | 18.0 | 23.6 | 25.1 | 21.0 | 19.2 |
| İcmal mərkəzi hökumətin maliyyə göstəriciləri | | | | | | |
| Ümumi büdcə kəsiri | 14.6 | 13.3 | 4.9 | 1.0 | 0.3 | -3.1 |
| İlkin qeyri-neft kəsiri, qeyri-neft ÜDM-sinin faizi ilə | -36.3 | -40.3 | -45.4 | -45.0 | -43.2 | -41.8 |
| Xarici sektor | | | | | | |
| Cari hesab (- defisit) | 28.0 | 26.5 | 21.8 | 19.7 | 15.0 | 9.9 |
| Xarici Birbaşa İnvestisiya (xalis) | 0.6 | 1.4 | 1.1 | -0.9 | 0.5 | 1.9 |
| Ödənilməmiş dövlət xarici borcu və dövlət zəmanətli xarici borc | 7.4 | 7.3 | 9.2 | 11.7 | 14.0 | 14.2 |
| Memorandum maddələri: | | | | | | |
| Məcmu rəsmi beynəlxalq ehtiyatlar (milyon ABŞ dolları ilə) | 6,721 | 10,887 | 11,587 | 13,987 | 15,987 | 16,487 |
| Nominal ÜDM (milyon manatla) | 42,465 | 51,158 | 53,968 | 57,708 | 61,638 | 67,473 |
| Nominal qeyri-neft ÜDM-si (milyon manatla) 2/ | 22,243 | 25,393 | 29,766 | 34,051 | 38,144 | 42,850 |
| Nominal qeyri-neft ÜDM-si (milyon ABŞ dolları ilə) 2/ | 27,877 | 32,286 | 37,919 | 43,405 | 49,614 | 55,735 |
| Adambaşına nominal ÜDM (ABŞ dolları ilə) | 5,847 | 7,106 | 7,538 | 8,160 | 8,823 | 9,679 |
| Nominal ÜDM (milyon ABŞ dolları ilə) | 52,913 | 64,819 | 68,700 | 73,537 | 79,363 | 87,763 |
| Neft Fondunun Aktivləri (milyon ABŞ dolları ilə) | 22,766 | 29,800 | 34,058 | 35,448 | 37,723 | 38,484 |
| Əhalinin sayı (ilin ortasına, milyon) | 9.0 | 9.1 | 9.2 | 9.3 | 9.3 | 9.4 |
| Məzənnə (manat/dollar, dövrün sonuna) | 0.798 | 0.787 | 0.785 | 0.785 | | |

Mənbələr: Azərbaycanın dövlət orqanları; və BVF-in qiymətləndirmələri və proqnozları.

1/ Neft-qaz hasilatı və emalı daxil olmaqla.

2/ Neft və qazın nəqli (qərb marşrutu ilə nəql istisna olmaqla

3/ Ümumi daxili tələbi (neft sektoru ilə əlaqədar olan idxal istisna olmaqla) geniş pul kütləsinin orta göstəricisinə bölərək müəyyən edilir.

4/ Əvvəlki dövrlər üzrə məlumatlarda statistik xətalar vardır.

5/ Rəsmi təsdiq edilmiş dövlət büdcəsi göstəricilərinə uyğun olaraq aparılan hesablamalar əsasında, BVF əməkdaşları tərəfindən makroiqtisadi çərçivənin qiymətləndirilməsi.